# Horadiz əməliyyatı

**1993-cü ilin payızında Qarabağda, o cümlədən Füzuli rayonu istiqamətində Ermənistan silahlı qüvvələri öz havadarlarına arxalanaraq Azərbaycana qarşı hərbi təcavüzü davam etdirir, kəndlər, şəhərlər işğala məruz qalır, minlərlə insan öz dədə-baba yurdundan didərgin salınırdı.**

Xalqımızın haqlı tələbi və təkidi ilə yenidən hakimiyyətə qayıdan ulu öndər Heydər Əliyev ölkədə baş verən anarxiyanın, dərəbəyliyin və başıpozuqluğun qarşısını almaq üçün çox gərgin fəaliyyətə başlamışdı. Hər şeydən əvvəl isə erməni işğalını dayandırmaq üçün ordu quruculuğunda ilk addımlar atılırdı. İşğalın nəfəsi artıq Mil düzlərində hiss olunurdu və düşmən Beyləqana tərəf irəliləmək istəyirdi. Sözün əsl mənasında, hamı bu dahi insandan imdad gözləyirdi.

1993-cü il dekabr ayının əvvəllərində Heydər Əliyevin bölgəyə səfəri, cəbhə xəttindəki hərbçilərlə və yerli əhali ilə görüşləri heç də təsadüfi xarakter daşımırdı. Məhz 1994-cü il yanvar ayının 4-də milli ordunun hərbi hissələri Füzuli istiqamətində əks-hücum əməliyyatlarına başladı və düşmənə ağır, sarsıdıcı zərbələr vuruldu. Ermənilərin bu istiqamətdə hücumları dayandırıldı, eyni zamanda 22 yaşayış məntəqəsi işğalçılardan azad edildi. Bu qələbə insanlarda böyük ruh yüksəkliyi yaratdı, düşmənə qarşı səfərbərlik həyata keçirildi.

Qeyd edək ki, Horadiz əməliyyatı Azərbaycan ordusunun 1994-cü ildə keçirdiyi ən uğurlu əməliyyat olub. İlk döyüş günündə ermənilərdən qənimət olaraq 3 tank, bir ədəd "Şturm-S", 6 ədəd top, 6 ədəd top qoşqusu, 10-a yaxın nəqliyyat vasitəsi, çoxlu sayda silah-sursat götürülüb. Həmin döyüşdə düşmən ağır itki verərək və əsgərlərinin cəsədlərini döyüş meydanında qoyaraq geri çəkilib.




Yanvarın 6-da polkovnik Şair Ramaldanovun rəhbərlik etdiyi alay Horadiz qəsəbəsinə daxil olub. Horadiz döyüşlərində misilsiz qəhrəmanlıq göstərən 8 nəfər Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb.

28 il bundan əvvəl, 1994-cü il yanvar ayının 4-də başlayan və qələbə ilə başa çatan Horadiz əməliyyatının ildönümü münasibətilə anım tədbiri keçirilib. Tədbirdə Füzuli Rayon İcra Hakimiyyətinin başçısı Alı Alıyev, hüquq-mühafizə orqanlarının rəhbərləri, idarə, müəssisə və təşkilatların kollektivləri, şəhid ailələrinin üzvləri, müharibə veteranları, rayon ictimaiyyətinin nümayəndələri iştirak edib. Şəhidlərin əziz xatirəsi ehtiramla yad olunub. Çıxışlarda qeyd olunub ki, 2020-ci ildə silahlı qüvvələrimizin ilk uğurlu hərbi əməliyyatları məhz Füzuli rayonundan başlayıb. Müharibənin ilk günündə - sentyabrın 27-də Füzulinin Qaraxanbəyli, Qərvənd, Kənd Horadiz, Yuxarı Əbdürrəhmanlı kəndləri və Cəbrayılın Böyük Mərcanlı və Nüzgar kəndləri azad edilib. İşğalçı Ermənistan ərazinin necə böyük əhəmiyyət daşıdığını dərk edərək burada çox güclü istehkamlar qurmuş, bir neçə xətdən ibarət müdafiə xətti yaratmışdı. Eyni zamanda, otuz ilə yaxın bir müddətdə burada möhkəmlənmişdi. Buna baxmayaraq, bu istehkamları, müdafiə xətlərini yarıb keçmək ordumuzun qəhrəmanlığı və fədakarlığı sayəsində mümkün oldu. Bu istehkamları canı-qanı bahasına dağıdaraq irəliləyən qəhrəman əsgər-zabitlərimiz düşmənə Azərbaycan xalqının böyüklüyünü bir daha göstərdi.

Azərbaycan Respublikasının Prezidenti, Qalib Ali Baş Komandan İlham Əliyev oktyabrın 17-də Füzuli rayon ictimaiyyətinin nümayəndələri ilə görüşündə bildirib ki, həm işğal dövründə, həm müharibə dövründə bütün təzyiqlərə, bəyanatlara baxmayaraq, bizim qabağımızda heç bir qüvvə dayana bilmədi. Biz Ermənistan ordusunu darmadağın etdik, erməni mifologiyasına son qoyduq, bütün dünyaya "yenilməz Ermənistan ordusu"nun nəyə qadir olduğunu və xalqımızın böyüklüyünü nümayiş etdirdik. Bu şanlı Qələbə çoxəsrlik Azərbaycan tarixində əbədi yaşayacaqdır.

Hazırda Horadiz şəhər statusunu şərəflə daşıyır. Yeni və müasir Horadiz öz gözəlliyinə görə Avropa şəhərlərindən geri qalmır.

**Salman ALIOĞLU,**
**"Respublika".**

Respublika .- 2022.- 7 yanvar.- S.3.